**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 011/535

**Bakı şəhəri** "06" 07 **2026-cı il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2026-cı illər üzrə rəsmi məlumatlarına əsasən, Qazaxıstan Respublikasının Şərqi Qazaxıstan (East Kazakhstan) vilayətində **xırdabuynuzlu heyvanların çiçək** xəstəliyi, Macarıstanın Haydu-Bihar (Hajdú-Bihar), Saboləç-Satmar-Bereq (Szabolcs-Szatmár-Bereg), Komarom-Esterqom (Komarom-Esztergom), Şomod (Somogy), Feyer (Fejér), Baranya (Baranya), Heveş (Heves), Peşt (Pest) inzibati ərazi vahidlərində, Avstraliya İttifaqının Viktoriya (Victoria) ştatında, Türkiyə Respublikasının Konya (Konya), Afyonqarahisar (Afyonkarahisar), Kayseri (Kayseri) vilayətlərində, Braziliya Federativ Respublikasının Riu-Qrandi-du-Sul (Rio Grande do Sul) ştatında, Amerika Birləşmiş Ştatlarının Montana (Montana), Pensilvaniya (Pennsylvania), Şimali Karolina (North Carolina), Florida (Florida), Merilend (Maryland), Cənubi Karolina (South Carolina) ştatlarında **yüksək patogen quş qripi** xəstəliyi, Malta Respublikasının Cənub (Nofsinhar) regionunda isə qeydə alınmış **Nyukasl** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Xırdabuynuzlu heyvanların çiçək xəstəliyi üzrə:**

**1.1.** 17.03.2023-cü il tarixli 012/263 nömrəli qərarla Qazaxıstan Respublikasının Şərqi Qazaxıstan vilayətinə tətbiq edilmiş məhdudiyyət.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
07.07.2026

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.2.** 13.11.2023-cü il tarixli 052/303 nömrəli qərarla Macarıstanın Haydu-Bihar və Sabolç-Satmar-Bereq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlər;

**1.3.** 18.12.2023-cü il tarixli 065/316 nömrəli qərarla Macarıstanın Komarom-Esterqom inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 22.01.2024-cü il tarixli 005/325 nömrəli qərarla Macarıstanın Şomod inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 24.05.2024-cü il tarixli 035/355 nömrəli qərarla Avstraliya İttifaqının Viktoriya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 17.10.2024-cü il tarixli 066/386 nömrəli qərarla Macarıstanın Feyer inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 05.11.2024-cü il tarixli 071/391 nömrəli qərarla Türkiyə Respublikasının Konya vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 15.11.2024-cü il tarixli 073/393 nömrəli qərarla Türkiyə Respublikasının Afyonqarahisar vilayətinə və Macarıstanın Baranya inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyətlər;

**1.9.** 04.02.2025-ci il tarixli 009/415 nömrəli qərarla Macarıstanın Heveş və Peşt inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlər;

**1.10.** 14.04.2025-ci il tarixli 023/429 nömrəli qərarla Türkiyə Respublikasının Kayseri vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.11.** 19.05.2025-ci il tarixli 029/435 nömrəli qərarla Braziliya Federativ Respublikasının Riu-Qrandi-du-Sul ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.12.** 06.10.2025-ci il tarixli 059/465 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Montana ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.13.** 17.11.2025-ci il tarixli 067/473 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Pensilvaniya ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.14.** 16.12.2025-ci il tarixli 083/489 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Şimali Karolina ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.15.** 19.01.2026-cı il tarixli 005/499 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Florida, Merilend ştatlarına tətbiq edilmiş məhdudiyyətlər;

**1.16.** 10.03.2026-cı il tarixli 020/514 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Cənubi Karolina ştatına tətbiq edilmiş məhdudiyyət.

**Nyukasl xəstəliyi üzrə:**

**1.17.** 02.06.2025-ci il tarixli 032/438 nömrəli qərarla Malta Respublikasının Cənub regionuna tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
07.07.2026

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu qərarın 1-ci bəndində qeyd olunan yoluxucu heyvan xəstəlikləri üzrə adıçəkilən ölkələrin müvafiq inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması barədə, həmin ərazilərdən baytarlıq nəzarətində olan malların Azərbaycan Respublikasına idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
07.07.2026